## Zəngin ənənəyə, milli ruha söykənən qəhrəmanlıq

…Hər xalq pəhləvan yetişdirə bilmir. Pəhləvanlıq xalqın tarixi ənənələrinin, zəngin milli kezmişinin bir hissəsidir. Tarixin dərin qatlarından gələn milli gğcğn, qğrurun, şğcaətin, yenilməzliyin simvoludur. Pəhləvanlıq tğrk ruhunun yenilməzliyinin, əzmkarlığının, rəqibi qarşısında əyilməzliyinin ifadəsidir. Azərbaycanda pəhləvanlığın milli kükənli, qədim, bənzərsiz təməl ənənələri var. Bu, əzəli, əbədi düyğşkənliyimizin ifadəsi olmaqla yanaşı, xalq ruhunun ayrı-ayrı fərdlərdə yaşamasının bariz nğmunəsidir. London Olimpiya Oyunlarında mühtəşəm qələbə qazanan Azərbaycan gğləşziləri bir daha təsdiq etdilər ki, respublikamız həqiqətən gğclğ pəhləvanlar diyarıdır.

***Güləş - milli keçmişimizin,***
***yenilməzliyin simvolu...***

...Guləş idmanın ən qədim növlərindən biridir. Hələ eramızdan 2500 il əvvəl Misirdə güləş ilə məşğul olurdular. Qədim yunanlarda da idmanın bu növü çox populyar olub. Keçmişdə pəhləvanlar qumla örtülü meydançada güləşirdilər. Pəhləvanlar meydanda dolaşır, elə bil ki, bir-birini başdan-ayağa süzür və birdən hücuma keçirdilər. Hər güləşçinin sevimli bir fəndi vardı. Rəqibinin çiynini, kürəyini və ya dizini üç dəfə yerə vuran güləşçi qalib sayılırdı.

Müxtəlif ölkələrdə güləşdə qələbəni müxtəlif meyarlar üzrə versələr də, sonralar yunanların və romalıların güləşinə xas olan ənənə - rəqibin kürəyini yerə vurmaqla «təmiz qələbə» bütün dünyada qəbul olundu. Amma bununla yanaşı, sərbəst güləşdə klassik güləşmədən fərqli olaraq çarpaz vurmaq, beldən aşağı yapışmaq və digər fəndlər əsrlər boyu öz ənənəsini saxlayaraq hazırda idmançılar üçün qələbədə əsas manevrlərdən biri sayılır.

Azərbaycanda da güləşin çox zəngin tarixi vardır və qədim güləşçilərdən söhbət düşəndə ölkəmizin adı tez-tez xatırlanır. Qobustan və Gəmiqaya qədim qayaüstü yazılarında hələ eramızdan iki min il əvvəl Azərbaycanda bürünc alətlərin işləndiyi vaxtlarda insanların müxtəlif fiziki hərəkətlərini əks etdirən yazılara, rəqslərə rast gəlinir ki, burada güləş səhnələrinin cizgiləri açıq-aydın hiss olunur. Böyük klassik şairimiz Nizami Gəncəvi hələ 800 il bundan əvvəl yazmış olduğu məşhur poemalarında Azərbaycan xalqının qəhrəman oğullarının şücaətini, xüsusilə də pəhləvanların məharətini təsvir edib. Qədim Şərqin yazılı və şifahi xalq yaradıcılığı ilə bağlı olan mədəniyyət abidələrində yarışlar keçirərək güləşən pəhləvanlarımız haqqında xeyli məlumatlar verilir.

***Pəhləvanlar ölkəsi...***

Güləşin qədimliyini sübut edən faktlardan biri Azərbaycanda toy və bayram şənliklərində insanların bu növdə özlərini sınamalarıdır. Azərbaycanda güləş yarışları xüsusi yerlərdə - zorxanalarda keçirilirdi. Güləş pəhləvanların ənənəvi salamlaşması və özlərini təqdim etməsi mərasimindən sonra qoşa zurna ilə çalınan «cəngi» sədaları altında başlanırdı. Hələ, 1789-1871-ci illərdə yaşamış Hüseynqulu Mürsəlqulu oğlu, onun tələbəsi Məşədi Əbdül Əli oğlu Axundov, Şomu Abdulla, Mirzə Həşim oğlu Məhəmmədhüseyn, Sar Pənci və başqaları milli güləş ustaları kimi məşhur olmuşlar. 20-ci əsrin əvvəllərində pəhləvanlarımız Sali Süleyman, Rəşid və Cümşüd Yusifov qardaşları dünyada tanınırdılar.

Milli güləş ötən əsrin əvvəllərinə kimi daha çox gənclərin sevimli məşğələsi və güclərini nümayiş etdirmək üçün yarış anlayışı mənasında qəbul olunurdusa, sonrakı illərdə bu idman növü tam başqa məna kəsb etməklə, dünya idmaçıları ilə mübarizəyə qoşulmaq üçün sınaq məktəbi anlamını daşımağa başladı. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra milli güləş respublikamızda daha da inkişaf etdi. 1937-ci ildən milli güləş üzrə rayon, şəhər və respublika yarışları keçirilməyə başlandı. İlk güləş klublarının yaranması da ötən əsrin ortalarına təsadüf edir. «Kusturud» idman klubunun təşəbbüskarlarından və oradakı məşğələlərin iştirakçılarından olan əməkdar idman ustası Rza Baxşəliyev Azərbaycanda peşəkar güləşin banilərindən sayılır. SSRİ-nin əməkdar idman ustası, Azərbaycanın əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar məşqçi, güləş üzrə 20-qat Azərbaycan çempionu olmuş Rza Baxşəliyevin yetirmələri o dövrdə ümumiittifaq çempionatlarında ən yaxşı nəticələr qazanmışdılar. Onun yetirmələri olan Musa Babayev, İbrahimpaşa Dadaşov, Muxtar Dadaşov dəfələrlə SSRİ çempionu olmuş, Rəşid

Məmmədbəyov isə 1952-ci ildə Helsinki Olimpiya Oyunlarında gümüş medal qazanmışdır. Bu, Azərbaycan idmançılarının Olimpiya Oyunlarında ilk uğuru kimi qiymətləndirilə bilər.

1959-cu ildə SSRİ-nin Güləş Federasiyasının tərkibində ilk dəfə bir qurum kimi Azərbaycan Güləş Federasiyası təsis olundu və bu, güləş idman növünün inkişafına təkan verdi. Onlarla güləşçimizin beynəlxalq yarışlarda iştirakının təmin olunmasında və onların yüksək nəticələr əldə etməsində federasiyanın mühüm rolu oldu. 1978-ci ildə Meksikada keçirilən dünya çempionatında Azərbaycan güləşçisi Arif Niftullayev İlk Dünya çempionu titulunu qazandı. 1980-1990-cı illərdə Məhəddin Allahverdiyev 3 qat Dünya çempionu tituluna sahib olmuşdur.

davamı növbəti sayımızda